Azərbaycan Respublikası
Mədəniyyət Nazirliyi

F. Köçərli adına Respublika
Uşaq Kitabxanası



# Yubilyar kitablar - 2021

**Mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış 2021- ci il üçün yubilyar kitablarla bağlı yaddaş kitabçası**

**Bakı - 2021**

**Tərtibçilər:** **Nərgiz Məcidova**
**Sevil Əhmədova**

**İxtisas redaktoru və Buraxılışa məsul:** **Şəhla Qəmbərova,** *Əməkdar mədəniyyət işçisi*

**Redaktor:** **Ruhiyyə Məmmədli**

**Yubilyar kitablar:** 2021-ci il üçün mərkəzi kitabxanaların uşaq şöbələri, MKS-nin şəhər, qəsəbə, kənd kitabxana filialları üçün hazırlanmış yaddaş kitabçası / tərt. ed. N. Məcidova; S. Əhmədova, ixt. red. və burax. məsul Ş. Qəmbərova.- Bakı: F.Köçərli adına Respublika Uşaq Kitabxanası, 2021.- 29 s.

**©F. Köçərli adına Respublika Uşaq Kitabxanası, 2021**

# Yubilyar kitablar

Kitabxanalar hər zaman zəngin bilik xəzinəsi kimi minlərlə oxucunun mütaliə mənbəyi olan bir sərvət hesab edilmişdir. Ona görə ki, bu bilik müəssisələri öz sərvətilə minlərlə uşaqların dünyagörüşlərinin formalaşması və inkişaf etməsində böyük rol oynayır. Burada mütaliə ilə qazandıqları bilikləri ilə hər bir uşaq, dünyagörüşlərini zənginləşdirib, vətənini sevməyi, dostluqda möhkəm olmağı, ailədə sədaqətli olmağı öyrənir, gələcək uğurlarına yol açaraq dünya xalqlarının mədəni əlaqələrinə qapı açır, hansı peşəni seçəcəyini müəyyənləşdirir. Çünki mədəni biliklərinin artırılması üçün ədəbiyyatın təbliği əsas vasitələrdəndir. Buda özlüyündə kitabxanaların əsas fəaliyyətlərindən biridir. Hətta "Kitabxana işi haqqında" Azərbaycan Respublikasının qanununda da belə deyilir:

"Kitabxana elmi informasiya, mədəniyyət, təhsil, tərbiyə müəsisəsi kimi çap əsərlərinin digər informasiya daşıyıcılarını toplayıb mühafizə edən, onların ictimai istifadəsini təmin edən, cəmiyyətin intellektual mənəvi potensialının inkişafına kömək göstərən sosial institutdur. Çünki kitabxanaların sərvəti olan kitablar bilik mənbəyi olmaqla yanaşı, mədəniyyət daşıyıcılarıdır."

Bu baxımdan F.Köçərli adına Respublika uşaq kitabxanasında həyata keçirilən müxtəlif layihələr oxucuların dünyagörünüşlərinin inkişafı və formalaşmasında xüsusi rol oynayır, onlar tərəfin dən çox maraqla qarşılanır. Bu tədbir formaları sırasında əlamətdar günlər, yubilyar yazıçı və şairlərlə bağlı təşkil edilən layihələr, videoçarxlar, oxucuların tərcüməçi və yazarlarla, müxtəlif sahələrdə çalışan insanlarla görüşü, yeni kitabların təqdimatı, kitab sərgiləri, və s. yer alır. Bundan əlavə yubilyar kitablar haqqında hazırlanmış yaddaş kitabçası ilə də tanış olmaq oxuculara çox maraqlı olan tədbirlərdəndir. Ona görə ki, yubilar kitablar

haqqında vəsaitlərdə onlar oxuduqları kitabların keçmiş nəşr variantlarını tanıyır, onlara maraqlı gələn kitabları yenidən mütaliə etmək istəyirlər. Hər il olduğu kimi bu ildə ədəbiyyatımızın incilərini unutdurmamaq üçün yubileyi olan əsərlər və kitablar haqqında bildiklərimizi çatdırmaqla onları mütaliəyə daha da həvəsləndirmək istəyirik. Kitablarla onları tanış etmək üçün bu vəsaiti təqdim edirik. Lakin fərqli olaraq bu il mövcud vəziyyətlə bağlı bu kitablarla onlar onlayn şəkildə də tanış ola biləcəklər. Vəsaitin linki kitabxananın sosial şəbəkələrində, https://clb.az/ saytında, facebook və instaqram səhifələrində yerləşdiriləcəkdir. Yubilyar kitablarımızla bağlı bu yaddaş kitabçasında oxuculara bəzi yeni tipdə təqdim edilən nəşrlərin ilk çap variantı haqqında da məlumat vermişik. Maraqlı annotasiya ilə onları bu kitabları tapıb oxumağa həvəsləndirmişik. Təhsil və mədəniyyət müəssələri işçilərinin istifadəsi üçündə nəzərdə tutulmuş vəsaitdə oxucularımız bu il çap edilməsindən 60 və 70 il otən kitablarla tanış ola biləcəklər. İlk əvvəl bu il 60 ildir bizlərlə olan kitablarımızı tanıyaq. Kitabxananın qızıl fondunda yerləşən bu nəşrləri tanımaq üçün onların pdf variantlarınıda sizlərə təqdim etmişik. Ümumiyyətlə https://clb.az/ saytı vasitəsi ilə bu nəşrlərlə hər biriniz kitabxananın saytında tanış ola bilərsiniz.

**Nəşrindən 60 il ötən kitablarımız**

**1.Abbaszadə, H.** Yun corab / Hüseyn Abbaszadə; red. N. Həsənzadə; rəs. R. Əmirov.- Bakı: Uşaqgəncnəşr, 1961. - 12 s.: şək.

**2.Babayeva, Ə.** Mən tək deyiləm: povest / Ələviyyə Babayeva; red. İ. Tapdıq; rəs. R. Babayev.-Bakı: Uşaqgəncnəşr, 1961.- 96 s.: şək.

**3.Əzimzadə, Y.** Murad dayının xatirələri: hekayələr / Yusif Əzimzadə; red. R. Salamova; rəs. R. Mehdiyev.- Bakı: Uşaqgənc-nəşr, 1961. - 92 s.

**4.Hacıyev, H.** Hekayələr / Hacı Hacıyev; red. İ. Tapdıq; rəs. C. Müfidzadə.-Bakı: Uşaqgəncnəşr, 1961. - 48 s.

**5.Haqverdiyev, Ə.** Xortdanın cəhənnəm məktubları / Əbdür-rəhimbəy Haqverdiyev; red. Y. Məmmədov; rəs. İ. Piçxadze.- Bakı: Uşaqgəncnəşr, 1961. - 144 s.

**6.Haqverdiyev, Ə.** Mozalanbəyin səyahətnaməsi / Əbdür-rəhimbəy Haqverdiyev; tərt. ed. və red. K. D. Məmmədov; rəs. K. Kazımzadə.-Bakı: Uşaqgəncnəşr, 1961.- 40 s.

**7.İbrahimov, M.** Xəlqilik və realizm cəbhəsindən / Mirzə İbrahimov; red. C. Bağır; rəs. Q. Məcidov.-Bakı: Azərnəşr, 1961. - 525 s.

**8.Mehdiyev,** H. Keçi, quzu və dana / Həsən Mehdiyev; red. N. Həsənzadə; rəs. A. Hacıyev.-Bakı: Uşaqgəncnəşr, 1961. - 17 s.

**9.Məmmədrza, A.** Atamı istəyirəm / Afiyət Məmmədrza; red. R. Salamova; rəs. Y. Ağayev.- Bakı: Uşaqgəncnəşr, 1961. - 76 s.

**10.Sabir, Ə.** Təmsillər: Ağacların bəhsi. Qarınca, hörümçək və ipəkqurdu /Mirzə Ələkbər Sabir; red. İ. Tapdıq; rəs. R. Mehdiyev.- Bakı: Uşaqgəncnəşr, 1961. - 14 s.

**11.Seyidzadə, M.** Qəzəllər / Mirmehdi Seyidzadə; red. Ş. Abasov; rəs. K. Kazımov.-Bakı: Azərnəşr, 1961. - 80 s.

**12.Səmədov, Ə.** Aqil Babanlının nağılları: Nağıllar və hekayələr / Əli Səmədov; red. R. M. Şıxəmirova; rəs. H. A. Ağayev.-Bakı: Uşaqgəncnəşr, 1961. - 36 s.




**Abbaszadə, H. Yun corab /Hüseyn Abbaszadə; red. N. Həsənzadə; rəs. R. Əmirov.- Bakı: Uşaqgəncnəşr, 1961.- 12 s.**

1961-ci ildə kiçikyaşlılar üçün nəşr edilmiş müəllifin mənzum hekayəsində qoca nənənin zəhmətkeşliyindən, corab hörmək üçün yun daramasından, yun corabları toxumaq üçün ipləri necə əyirib çiçəklərdən topladığı rənglərlə boyamasından söhbət açılır. Nənəsinin belə güllü-çiçəkli toxuduğu corablara onun nəvəsi çox heyrandır. O deyir ki, nənəsi çox zəhmətkeşdir. Nə qədər işi çox olsada millərini əlinə alıb corab toxuyanda sanki yorğunluğu çıxır. Özüdə yaratdığı bu güllü-çiçəkli gözəlliklərdən zövq alır. Kitab kiçikyaşlıları ağbirçək nənənin timsalında zəhmətsevərliyə səsləyir, onlara öz işlərini həmişə can yandıraraq, zövq alaraq öhdəsindən gəlməyi aşılayır. Bu il nəşrin işıq üzü görməsindən 60 il ötür. Uzun illər uşaqlarımızın sevə-sevə oxuduğu Göyərçin jurnalının baş redaktoru olmuş müəllifin yubilyar kitablardan olan bu mənzum hekayəsi ilə tanış olmağı oxucularımızada tövsiyə edirik. Bu mənzum hekayə onlar üçün də çox maraqlı olacaq. Redaktoru Nəriman Həsənzadə olan bu kitab 1961-ci ildə uşaqgəncnəşrdə nəşr edilmişdir.
https://drive.google.com/file/d/1dVU--C5b-o0-xJB5efLmnuKlpnIjEK81/view

**Babayeva, Ə. Mən tək deyiləm: povest / Ələviyyə Babayeva; red. İ. Tapdıq; rəs. R. Babayev. - Bakı: Uşaqgəncnəşr, 1961.-96 s.**

Görkəmli yazıçımız Ə. Babayevanın demək olar ki, əksər əsərlərində tərbiyə məsələləri ön planda dayanır. O, uşaqlar üçün yazdığı hekayələrində balaca oxucularının maraqlı bədii obrazlarını yaratmağa nail olmuşdur. Onun əsərləri - roman, povest və hekayələri ciddi axtarışların məhsuludur. Bu il belə əsərlərin yer aldığı *"Mən tək deyiləm"* kitabının oxucuların ixtiyarına verilməsindən 60 il ötür.

1961-ci ildə nəşr edilmiş bu kitabda müəllifin *"Su aydınlıqdır", "Dağ yolları ilə", "Təzə şəhərdə təzə dost", "Həkim əmi", "Xoş gəlmisən Bahar", "Dəniz dalğalanır, gəmi yırğalanır", "Mən tək deyiləm", "Yaralı qaranquş", "Kəklik çardaxlıya qayıtdı", "Çay kənarında"* hekayələri yer almışdır. Yazıçı Ələviyyə Babayevanın bu kitabında başı qarlı dağlar ətəyində salınmış təzə bir şəhərin uşaqlarının maraqlı sərgüzəştlərlə dolu həyatı göstərilir. Bahar selləri coşub köpürəndə hər il kəndlərə fəlakət gətirən göl sovet adamlarının gərgin əməyi nəticəsində indi kəndləri su ilə, işıqla təmin edir. Uşaqlar da böyüklərlə yanaşı təzə şəhərin salınmasında, yaşıllaşdırılmasında iştirak edirlər. Kitabda doğma yurdun təbiəti səmimi və şirin bir dillə təsvir olunur. Kitabla aşağıdakı linke keçid almaqla kitabxananın saytında tanış ola bilərsiniz.
https://drive.google.com/file/d/1JyfLn_LF5yRtz_rkDi6TjBEhoauXidug/view

**Əlibəyli, X. İşləməyən dişləməz / Xanımana Əlibəyli; rəs. A. Hacıyev; red. T. İlyas.- Bakı: Uşaqgəncnəşr, 1961.-72 s.**

Görkəmli yazıçımız Xanımana Əlibəyli bu kitabını kiçik yaşlı uşaqlara həsr etmişdir. Burada körpələrin bağça və məktəb həyatı, onların zəhmətə, təhsilə olan marağı aydın, rəvan şeir dili ilə tə-




rənnüm edilmişdir. Kitaba müəllifin balacalar üçün yazdığı *“Çayda”, “Mən özüm təqsirkaram”, “Yol”, “Meşədə”, “Yay gəlir”, “Axşam oldu”, “Dərs vaxtı”, “Tez dur, tez yat”, “Yalançı xəstə”, “Kirpi”, “Növbətçi”, “Ördək dedi”, “Külək”, “Çərpələng”, “Bəs sən necə”, “Mərifət”, “Canlı daş”, “Xalçaçı nənə”, “Kiçik xarrat”, “Qoçaqlıq”, “Gülyaz”, “Yalançı pəhləvan”, “Çempion”, “Rəngsaz”, “Nalbənd”, “Qarpız”, “Tap görüm nədir”, “Kölgə”, “Qara şanı”, “Şəkilli kitab”, “Kəpənək”, “Pişikdən giley”, “İki xoruz”, “Dalğalar”*, adlı kiçikhəcimli şeirləri və uşaqlar üçün yazdığı *“İşləməyən dişləməz”* mənzum nağılı daxil edilmişdir.

“İşləməyən dişləməz” mənzum nağılında yaşıl milçəyin tənbəlliyi, boş-bekar gəzib heç bir işlə məşğul olmamağı tənqid edilmişdir. Hekayədə tənbəl milçəyin qoca üzüm satanı zara gətirməsi, zəhmətkeş qarışqaların necə qonağı olması, arıların zəhmətkeşliyinə baxıb onlara qoşulmaq, tənbəlliyinin daşını atmaq istəməsindən danışılır. Amma yaşıl milçəyin buna gücü çatmır. Zəhmətkeş arılarla birlikdə çiçək tozu toplamağa yollanan yaşıl milçək tənbəl olduğu üçün tez yorulur, qanadları sözünə baxmır. Axı o zəhmətkeşliyə yox zibillikərdə eşələnməyə öyrənib. Yarı yolda gölməçəyə düşür. Çiçək tozu toplamağa gedən ana arıları köməyə çağırır. Lakin arılar onun tənbəlliyini bilib ona kömək etmirlər. Yaşıl milçək birtəhər göy otlardan yapışıb sahilə çıxır. Əl-qolu açılan milçək özünü vurub bir uçuq dama vurur, ordan da bir çardağa çıxır. Çardaqda tənbəl milçəyi görən hörümçək ona qayğı göstərirmiş kimi hördüyü torlarda dincəlməyə yer göstərir. Burada dincələrkən də milçəyi toruna

salb axırına çıxır. Kitabın mətnin pdf forması ilə daha yaxından https://clb.az/ saytından aşağıdakı linkə keçid almaqla tanış ola bilərsiniz.
https://drive.google.com/file/d/1tb01v4DPlbRXZw9i1WZGa3Pv3n59P2on/view




**Əzimzadə, Y. Murad dayının xatirələri: hekayələr / Yusif Əzimzadə; red. R. Salamova s; rəs. R. Mehdiyev.- Bakı: Uşaqgəncnəşr, 1961. - 92.**

Yazıçı Yusif Əzimzadənin *“Murad dayının xatirələri”* kitabında uşaqlar üçün yazdığı Murad dayının xatirələri və bir sıra hekayələri toplanmışdır. Kitabdakı hekayələrdə uşaqlar Murad dayını çox sevirlər. Çünki o həmişə uşaqlıq illərindən başına gəlmiş qəribə əhvalatları onlara nağıl edir. Murad dayı uşaqlıqda etdiyi nadincliyini, inadcıllığını böyüklərə qulaq asmadığını xatırlayaraq indi də utandığını uşaqlarla bölüşür və uşaqlara onları təkrar etməməyi tövsiyə edir. Maraqlı söhbətləri ilə o həm onlara necə düzgün hərəkət etməyi öyrədir, həm də onların sevimlisinə çevrilir. Kitabdakı başqa hekayələrdə isə uşaqlara təhsil almalarının onlar üçün nə qədər xeyirli olmasından söhbət açılır.
https://drive.google.com/file/d/1-a2xOiePlN_jxfudSVO_x3NVOznMAtGU/view

**Hacıyev, H. Hekayələr / Hacı Hacıyev; red. İ. Tapdıq; rəs. C. Müfidzadə.-Bakı: Uşaqgəncnəşr, 1961. - 48 s.**

Satirik planda yazılmış bu kitabdakı hekayələrdə müəllif, yaltaqlıq və ikiüzlülük edən köhnə fikirli adamların iç üzünü açır, uşaqlar üçün yaltaqlığın ikiüzlülüyün insanı necə gözdən saldığı-

nı göstərir, onlara da gələcəkdə belə adamlarla rastlaşanda onların ifşa edilməsi lazım olduğunu göstərir. Bununla bərabər, belə tipləri öz qanadı altına çəkmiş Səməndər qağanın şəxsində başabəla




idarə müdirlərini tənqid edir. Kitabda müəllifin kiçikhəcmli "Azar", "Təşkil elə" "Başın sağ olsun", "Sarıq", "Xəbərdarlıq", "Albalı" hekayələri yer almışdır. Redaktoru görkəmli yazıçımız İlyas Tapdıq, Rəssamı C. Mufidzadə olan kitab 1961-ci ildə Azərbaycan Uşaq və Gənclər Ədəbiyyatı nəşriyyatında çap edilmişdir. Burada verilmiş "Albalı" hekayəsində Səməndər müəllimə uşaqlara nübar üçün gətirilmiş albalıların onlara çatdırmaması üzə çıxır. Oxucular kitabla tanış olmaq üçün aşağıda göstərilmiş linkə keçid ala bilərlər.
https://drive.google.com/file/d/1cYTv8MYjmgTupNr2g2mNnqBvXp9xfehy/view




**Məmmədrza, A. Atamı istəyirəm / Afiyət Məmmədrza; red. R. Salamova; rəs. Y. Ağayev.- Bakı: Uşaqgəncnəşr, 1961. - 76 s.**

"Atamı istəyirəm əsəri" gənc yazıçı Afiyət Məmmədrzanın ikinci işıq üzü görmüş kitabıdır. Kitab 1961-ci ildə Uşaq və Gənclər nəşriyyatında nəşr edilmişdir. Müəllif bu kitabda Cənubi Azərbaycan zəhmətkeşlərinin acınacaqlı həyatını, ehtiyac içində yaşadıqlarını, öz sahibkarları tərəfindən onlara edilən haqsızlıqları, əzab-əziyyətləri sadə dildə oxuculara çatdırır, cəhaləti, köhnəliyi ifşa edir. Kitabda *"Ehtiyac", "Göz gördüyündən qorxar", "Əminin ayağı niyə əyri idi", "Dedi elə dayımsan",*

*“Qaraağac”, “Səlimin çarıqları”, “Torpaq bizimkidir”, “Gərək əlin dəyməsin”* hekayələri də toplanmışdır. Kiçikyaşlı oxucular üçün nəzərdə tutulmuş bu hekayələr onlara harda olsalar da haqq-ədaləti unutmamağa, ədalətsizliyin, zülümkarlığın necə mənfi bir hal olduğunu çatdırır.




**Mehdiyev, H. Keçi, quzu və dana / Həsən Mehdiyev; red. N. Həsənzadə; rəs. A. Hacıyev.- Bakı: Uşaqgəncnəşr, 1961. - 17 s.**

Müəllif Həsən Mehdiyevin kiçik yaşlı məktəblilər üçün nəzərdə tutulmuş bu kitabı maraqlı bir nağıldan ibarətdir. 17 səhifədən ibarət nağıl quzu və keçinin nağılıdır. Nağılda keçinin necə quzunu bataqlıqdan xilas etməsindən sonra, keçi və quzunun lovğa dananı acından ölməkdən necə xilas etdiklərindən danışılır. Sonda isə keçi, quzu və tənbəl dananın özlərinə yem tapmaq üçün başlarına canavarın gətirdiyi əhvalat nəql edilir. Kitab kiçikyaşlı uşaqlar üçün nəzərdə tutulmuşdur. Yazıçı Həsən Mehdiyevin *“Keçi quzu Dana”* adlı bu kitabın 1961-ci il nəşrindən altmış il ötür. Bu maraqlı nağılla oxucularımız kitabxananın saytında göstərilmiş linkdə tanış ola bilərlər. https://drive.google.com/file/d/1t9ZtSAR0BbCpCp6lfYo7h-Pl3NKXdqgT/view

**Haqverdiyev, Ə. Xortdanın cəhənnəm məktubları / Əbdürrəhimbəy Haqverdiyev; red. Y. Məmmədov; rəs. İ. Piçxadze.- Bakı: Uşaqgəncnəşr, 1961. - 144 s.**

Azərbaycan yazıçısı və dramaturqu, ictimai-siyasi və teatr xadimi, pedaqoq, ədəbiyyatşünas, Azərbaycan SSR əməkdar incəsənət xadimi (1929), Azərbaycan ədəbiyyatının klassiki

hesab olunan Birinci Rus Dumasının Azərbaycandan deputatı, Gürcüstan Parlamentinin deputatı, *“Leyli və Məcnun”* operasının premyerasında ilk dirijor, Teatr Şurasının təsisçisi və birinci rəhbəri, Yazıçılar İttifaqının üzvü, “Molla Nəsrəddin” jurnalının baş redaktorlarından biri olmuş Əbdürrəhim bəy Haqverdiyevin *“Xortdanın cəhənnəm məktubları”* kitabı ilk dəfə 1930-cu ildə nəşr edirilmişdir. Onun yazdığı cəhənnəm məktublarının ilk variantı 1907-ci ildən başlayaraq “Molla Nəsrəddin” jurnalında ardıcıl çap edilməyə başlamışdır. İnqilabdan sonra isə müəllif əsəri yenidən işləyib oraya “Odabaşının hekayəsi” povestini əlavə etmişdir. İlk dəfə kitab halında 1930-cu ildə nəşr edilmiş əsər sonralarda oxucuların ixtiyarına verilmişdir. Kitabın 1961-ci ildə işıq üzü görmüş nəşrindən bu il 60 il ötür. Böyük yazıçımızın yazdığı əsər bugün də öz dəyərini itirməmişdir. Mövhumat və cəhalət qalıqlarının tənqidinə həsr edilmiş bu kitab oxucularımız tərəfindən hələ də maraqla qarşılanır. Ədibin *“Xortdanın cəhənnəm məktubları”* povesti ictimai xarakterinə, qaldırdığı problemlərə, mövzu aktuallığına və üslubuna görə ədəbiyyatımızın seçilən əsərlərindəndir. Bu əsərdə yazıçı XIX əsrin sonu – XX əsrin əvvəlləri Azərbaycan mühitinin bədii portretini yaradıb. Povestdə nəzərə çarpan ictimai qüsurlar, eybəcərliklər satirik üslubda ifşa olunub.




“Molla Nəsrəddin” də hissə-hissə dərc olunan povest ədibin bir sənətkar narahatlığının ifadəsidir. Xalqın oyanması, haqqı nahaqdan seçməsi, qanunsuzluqlara göz yummaması bir yazıçı kimi onun əsas qayəsi idi.

https://drive.google.com/file/d/1uUsb-LKLQBFLRFGXn7lUtZ7nbu_-q7GT/view?usp=sharing




**Səmədov, Ə. Aqil Babanlının nağılları: Nağıllar və hekayələr / Əli Səmədov red. R. M. Şıxəmirova; rəs. H. A. Ağayev. - Bakı: Azərnəşr, 1961. - 36 s.**

*"Aqil babanın nağılları"* kitabında padşahların zülmkarlığı və xalqın müdrikliyi – Hər ana üçün öz balası gözəldir, qazıların acgözlüyü və avam camaatı soyması - Ən böyük yalançı, Yoxsul kəndli balalarının keçirtdikləri ağır, məşəqqətli həyat – Murtuzun nağıllarında göstərilmişdir. Həmçinin kitabdakı hekayələrdə müəllif uşaqları həmişə və hər yerdə yaxşı dostluq və yoldaşlıq etməyə çağırmışdır.

"Aqil babanın nağılları" hekayəsində Sevinclə Şahin adlı bacı-qardaş çox mehriban olub, Aqil babanı çox sevirlər. Hər dəfə gələndə onlara nağıl payı gətirən Aqil babanı səbirsizliklə gözləyirlər. Aqil babanın danışdığı "Ən böyük yalançı", "Hər ana üçün öz balası gözəldir", "Murtuzun nağılı" onlar üçün çox maraqlıdır.

F.Köçərli adına Respublika uşaq kitabxanasının qızıl fondunda yerləşən bu kitabın 1961-ci il nəşrindən bu il 60 il ötür. Kitabla tanış olmaq üçün oxucularımız clb.az saytı və aşağıdakı linkə keçid ala bilərlər
https://drive.google.com/file/d/10Lchr-GgYDBbrbRjRFYrKhheqwbKpTzX/view

**Seyidzadə, M. Qəzəllər / MirMehdi Seyidzadə; red. Ş. Abasov; rəs. K. Kazımov. - Bakı: Azərnəşr, 1961. - 80 s.**

Qəzəl klassik şer tariximizdə insan qəlbinin döyüntülərini, gözəlliklərini yığcam, təsirli yolla əks etdirən bir şeir formasıdır. Dahi Azərbaycan şairləri Nizami, Füzuli, Xaqani və başqalarının




yaradıcılığında qəzəl janrı xüsusi yer tutmuşdur. Ümumiyyətlə demək olar ki, klassik şairlər qəzəl janrında gözəl nümunələr yaratmışlar. Sovet ədəbiyyatı dövründə və XXI əsr Azərbaycan ədəbiyyatında da bu janra müraciət edən çoxlu sənətkarlarımız olub. Bu qəzəllərdə şair Vətən məhəbbətini, dostluğu zəhməti yüksək qiymətləndirir. Onun "Acı olmaz", "Yada gələydi", "Güllər içində", "Sevdi Könül", "Dildən-dilə düşdü" kimi qəzəllərində əhdə vəfalılıq, gözəllik, məğrurluq əks etdirilmişdir.

Gündən-günə dünya dəyişir zəhmətimizlə
Hər gün yeni aləm yaranır sənətimizlə
Səhraları dərya eyləyib, düzləri gülşən,
Yüzlərlə şəhər salmışıq öz qüdrətimizlə.

"Zəhmətimizlə" adlanan bu qəzəldə şair zəhməti yüksək qiymətləndirir. Aşağıdakı "Vətənimsən" qəzəlində isə şair Vətənin gözəlliklərini tərənnüm edir. Məlumat verdiyimiz bu kitabın nəşrindən bu il 60 il ötür. Kitabxananın qızıl fondunda yerləşən bu kitabla aşağıdakı linkdə tanış ola bilərsiz.
https://drive.google.com/file/d/1EYcBB1eiFLZcz8j60JEBhoT-BAXRWMZs/view?usp=sharing




**Haqverdiyev, Ə. Mozalanbəyin səyahətnaməsi / Əbdürrəhimbəy Haqverdiyev; tərt. ed.və red. K. D. Məmmədov; rəs. K. Kazımzadə.- Bakı: Azərnəşr, 1961. - 40 s.**

Görkəmli yazıçı-dramaturq, ictimai xadim Əbdürrəhim bəy Haqverdiyev (1870-1933) maraqlı bədii əsərləri ilə ədəbiy-

yatımızı zənginləşdirdiyi kimi, publisistikası və jurnalist fəaliyyəti ilə də ölkəmizdə mətbu fikrin inkişafınada mühüm töhfələr verib. Təkcə Azərbaycanın deyil, bütövlükdə müsəlman Şərqinin qəflət yuxusundan oyanmasına güclü təsir göstərmiş "Molla Nəsrəddin" jurnalının (1906-1931) özü və onun əsasında yaranan ədəbi məktəb günümüzdə də əhəmiyyətini qoruyub saxlayır. Satirik dərginin ən fəal yazarlarından biri olan Əbdürrəhim bəy Haqverdiyev jurnalın azərbaycançılıq ideyasının daşıyıcıları – Cəlil Məmmədquluzadə, Ömər Faiq Nemanzadə, Mirzə Ələkbər Sabir, Əli Nəzmi, Məmməd Səid Ordubadi və başqalarının durduğu cərgədə öz yeri, öz xidmətləri ilə durur. Ə. Haqverdiyevin silsilə şəklində "Molla Nəsrəddin"də dərc olunan ikinci əsəri olan "Mozalan bəyin səyahətnaməsi" xüsusi bir tarixə malikdir. Yazıçı bu mövzuda satirik yazıların jurnal səhifəsinə gəlməsinin tarixçəsini belə qeyd edir: "Bir dəfə cəm olub "İbrahim bəyin səyahətnaməsi"ndən (Zeynalabdin Marağayi) söhbət edirdik. Burada "Molla Nəsrəddin"in dostlarından Ömər Faiq Nemanzadə, Salman Mümtaz, Qurbanəli Şərifov var idi. Bunu da deməliyəm ki, "Molla Nəsrəddin"in cəmi Türküstanda şöhrət və nüfuz qazanmasına səbəb Salman Mümtaz olduğu kimi, Naxçıvan tərəfindən də Qurbanəli Şərifov səbəb idi. "İbrahim bəyin səyahətnaməsi"ndən söhbət açılarkən mən dedim: "Nə olardı, bu kitaba nəzirə – bir "Səyahətnameyi "Molla Nəsrəddin" də olaydı. Aya, görəsən, "Molla Nəsrəddin" islam aləmini səyahət etsə, onun başına nə müsibətlər gələ bilər? Bu yerdə Mirzə Cəlil üzünü bizə tutub dedi: Gəlin biz Mozalanı gəzdirək. Ancaq bunun səyahətnaməsini öz aramızda bölüşdürək. Hər kəs onu özü görüb bildiyi yerə aparıb səyahət etdirsin; oxuyanlar güman etsinlər ki, həqiqətən, bu adam gəlib buraları görüb, bu felyetonları yazmış. Belə də oldu. Birinci felyetonu mən başlayıb Mozalanı Bakıya kimi gətirdim. Bakıdan Məşhədə onu Salman Mümtaz apardı. İrəvan və Naxçıvan tərəflərində Qurbanəli

Şərifov gəzdirdi. Beləliklə, “Mozalan bəyin səyahətnaməsi” ortalığa çıxdı”.

1961-ci ildə Azərbaycan Uşaq və Gənclər nəşriyyatında çap-dan çıxmış əsərin nəşrindən bu il altmış il ötür. Kitabxananın qızıl fondunda yerləşən bu kitabla aşağıdakı linkdə tanış ola bilərsiz.
https://drive.google.com/file/d/1S53tdvDD1_Y57ibj9sWZEK6ibbDvSRnd/view?usp=sharing




**İbrahimov, M. Xəlqilik və realizm cəbhəsindən / Mirzə İbrahimov; red. C. Bağır; rəs. Q. Məcidov.- Bakı: Azərnəşr, 1961. - 525 s.**

Bu kitabda müəllifin iyirmi ildən artıq bir müddətdə yazdığı məqalələr toplanmışdır.

Müəllif müasir və klassik yazıçı-larımızın yaradıcılığını tədqiq etməsi ilə onları kitabda müasir ədəbiyyat, klassik ədəbiyyat və incəsənət bölməsi ilə yerləşdirmişdir. Xüsusən müasir ədəbiyyat bölməsi geniş tədqiq edilərək burada Cəfər Cabbarlı, Səməd Vurğun, Abdulla Şaiq yaradıcılığı və ədəbiyyatımızda müasirlik, satira, ədəbi tənqid haqqında bəzi məqalələr verilmişdir.

“Ədəbiyyat və incəsənətdə satira” bölməsində ədəbiyyatın və incəsənətin bütün dövrlərdə satiranın lazımlı sahə olmasından danışılır. Komediyanın satiradan daha güclü olduğu təhlil edilir. “Ədəbiyyatımızda müasirlik” bölməsində isə müharibədən sonra ədəbiyyatımızda inkişaf yollarından söhbət açılır.

Yazıçı “Mübariz ədəbi tənqid uğrunda” yazısında hər bir xalqın ədəbiyyatında rol oynayan ədəbi tənqidi fikirlərdən söhbət açır. Tənqidi fikirlərin ədəbiyyatımıza nə qədər lazım olduğu

təhlil edilir. Müəllifə görə tənqidi fikirlər ona görə lazımdır ki, hər bir ədəbi əsər oxucu tərəfindən oxunduqdan sonra onun haqqında müsbət və ya mənfi fikir yürütmək mümkün olsun. Kitab məktəb, lisey müəllimləri üçün, ədəbiyyatımızda bəzi məsələlərlə tanış olmaq üçün çox lazımlıdır. Kitabxananın qızıl fondunda yerləşən bu kitabla aşağıdakı linkdə tanış ola bilərsiz https://drive.google.com/file/d/1Gn-chFAnIgO7yJywC7JvofYaQKbOh-ix/view?usp=sharing

**1981-ci il nəşrləri, nəşrindən 40 il ötən kitablar**

**1.Ağayev, İ.** Dostunu yaxşı tanı: Kiçik yaşlı uşaqlar üçün hekayə / İslam Ağayev; red. M. Namaz; rəs. R. Yanbulatov.-Bakı: Gənclik, 1981. - 16 s.

**2.Cahangirov, T.** Səlbinaz nənəm / Tariyel Cahangirov; red. H. Sadıqova; rəy. A. Laçınlı; rəs. R. Səmədov.-Bakı: İşıq, 1981. - 46 s.

**3.Hafiz, Ə.** Üç leylək balası: Kiçik yaşlı məktəblilər üçün şeirlər və poemalar / Əli Hafiz; red. Ç. Əlioğlu; rəs. Ç. Bağırov.-Bakı: Gənclik, 1981. - 100 s.

**4.Həsənbəy, Y.** Günəş doğanda: Kiçik yaşlı uşaqlar üçün şeirlər / Yusif Həsənbəy; red. M. Namaz; rəs. V. Martınov.-Bakı: Gənclik, 1981. - 68 s.

**5.Kəmərli, A.** Yadigar şəkil: Kiçik yaşlı uşaqlar üçün şeirlər və poemalar / Aslan Kəmərli; red. M. Namaz; rəs. S. Pirayeşi; rəy. A, Hüseynov.-Bakı: Gənclik, 1981. - 100 s.

**6.Qolyavkin, V.** Bir, iki, üç.. / Viktor Qolyavkin; red. M. Zeynalova; tərc. ed. T. Cəmilova; rəs. S. Şatikov.-Bakı: Gənclik, 1981. - 104 s.

**7.Lermontov, M.** Aşıq Qərib: nağıl / Mixail Lermontov; red. M. Namaz; tərc. ed. Ə. Yusifoğlu; rəs. V. Martınov.- Bakı:

Gənclik, 1981. - 23 s.

**8.Məlikməmmədlə vəfalı atın nağılı** / red. M. Namaz ; rəs. R. Babayev.-Bakı: [s.n.],1981. - 18 s.

**9.Mir Sabir.** Səfurənin gülləri: şeirlər / Mir Sabir; red. M. Namaz.-Bakı: Gənclik, 1981. - 72 s.

**10.Nizami, G.** Şah və xidmətçi: Kiçik yaşlı uşaqlar üçün / Nizami Gəncəvi; rəs. M. Namaz ; red. M. Namaz.-Bakı: Gənclik, 1981. - 32 s.

**11.Oleşa, Y.** Üç gonbul: Povest və hekayələr / Yuri Oleşa; tərc. ed. R. M. Şıxəmirova; red. R. Salamova.-Bakı: Gənclik, 1981. - 255 s.

**12.Rəhimov, S.** Bülbül əfsanəsi / Süleyman Rəhimov; red. M. Namaz; rəs. M. Ağayeva.-Bakı: Gənclik, 1981. - 12 s.

**13.Rza, X.** Marallar da duz yeyərmiş: Şeirlər və poemalar / Xəlil Rza; red. M. Namaz; rəs. L. Məmmədova.- Bakı: Gənclik, 1981. - 156 s.

**14.Rzaquluzadə, M.** İlin yazı-Elin sazı: şeirlər, poemalar, rəvayətlər / Mikayıl Rzaquluzadə; red. M. Namaz.- Bakı: Gənclik, 1981.- 256 s.

**15.Səmədov, Ə.** İnciçiçəyinin sırğası / Əli səmədov; red. M. Namaz; rəs. N. Babayev. - Bakı: Gənclik, 1981. - 15 s.

**16.Sonrakı peşmançılıq fayda verməz:** Azərbaycan xalq nağılı / red. M. Namaz; rəs. U. Zeynalova.- Bakı: Gənclik, 1981. - 13 s.

**17.Şirvanlı, Ə.** İlbizin nəğməsi / Əlihəsən Şirvanlı; red. H. Sadıqova; rəs. Z. Həsənova.-Bakı: İşıq, 1981. - 26 s.

**18.Ulduz:** Kiçik yaşlı uşaqlar üçün şeirlər və hekayələr / rəs. S. Şatikov.-Bakı: Gənclik, 1981. - 144 s.




**Hafiz, Ə. Üç leylək balası: Kiçik yaşlı məktəblilər üçün şeirlər və poemalar / Əli Hafiz; red. Ç. Əlioğlu; rəs. Ç. Bağırov. - Bakı: Gənclik, 1981. - 100 s.**

Bir neçə şeir kitabının müəllifi olan Hafiz Əlinin təqdim etdiyimiz bu kitabı onun uşaqlar üçün yazdığı ilk şeirlər toplusudur. Kitab 1981-ci ildə Gənclik nəşriyyatı tərəfindən çap edilmişdir. Onlayn şəkildə kitabxananın saytında kitabla daha yaxından tanış ola bilərsiniz.

https://drive.google.com/file/d/1I-TOCKWwj-iFb6BTticIeN-WIbBu_PXF/view




**Səmədov, Ə. İnciçiçəyinin sırğası / Əli Səmədov; red. M. Namaz; rəs. N. Babayev. - Bakı: Gənclik, 1981. - 15 s. : rəngli il. - kiril əlifbası ilə.**

Kiçik yaşlı uşaqlar üçün nəzərdə tutulmuşdur. Kitabda yazıçı Əli Səmədovun uşaqlar üçün qələmə aldığı “İnciçiçəyinin sırğası” və “Göbələklər niyə papaqlı olur?” nağılları verilmişdir. Kitabdakı birinci nağılda anası ilə incə, zərif gözəl, göyçək, ilk dəfə güllərə qoşulan balaca inciçiçəyindən, digər nağılda isə meşədə niyə papaqlı olduğunu öyrənməyə çalışan göbələkdən danışılır. Kitab 1981-ci ildə Gənclik nəşriyyatı tərəfindən çap edilmişdir. F.Köçərli adına Respublika uşaq kitabxanasının qızıl fondunda yerləşən bu nağıllarla kitabxananın saytında aşağıdakı link vasitəsi ilə tanış ola bilərsiniz.
https://drive.google.com/file/d/1AiVUUTFwVmsWzi3gfeNXQIFmAu-D-pfy/view?usp=sharing




**Rəhimov, S. Bülbül əfsanəsi / Süleyman Rəhimov; red. M. Namaz; rəs. M. Ağayeva. - Bakı: Gənclik, 1981. - 12 s.**

Növbəti təqdim etdiyimiz kitab yazıçı Süleyman Rəhimovun kiçikyaşlılar üçün maraqlı olan "Bülbül əfsanəsi" nağılıdır. Nağılda palıd meşəsinin ətəyində axan bulağın üstündə Qızılgül dərəsində Bülbülün şəlalənin səsindən, qızılgülün ətrindən necə ilham alıb gününün xoş keçdiyi göstərilir. Amma şahın sarayında qızıl qəfəsdə bülbülün günlərinin necə qəmgin keçdiyi görünür. Qızıl qəfəsdən bülbülün necə canını qurtarıb getməsi isə quşun nə qədər cəsarətli olduğuna və bununla azadlığına yenidən qovuşmasına bir nümunədir. Müəlllif isə bununla uşaqlara cəsarətin necə də insana lazımlı xüsusiyyətlərdən biri olduğunu çatdırır.







http://clb.az/mlikmmmdl-vfal-atn-nal_d1417.html

**Məlikməmmədlə vəfalı atın nağılı / red. M. Namaz; rəs. R. Babayev - Bakı: Gənclik, 1981 - 16 s.**

**Məlikməmmədlə vəfalı atın nağılı / burax. məs. A. Cəfərov, Ş. Qəmbərova; red. Z. Dadaşova, S. Səmədova; dizayn. V. Ağamirzəyeva, E. Səfərəliyeva; Azərb. Resp. Mədəniyyət və Turizm Nazirliyi., F.Köçərli adına Respublika Uşaq Kitab-xanası - Bakı: "Renessans-A", 2017.- 16 s.- Bərpa-nəşr.**

Təkrar çap zamanı ilk nəşrin kitab göstəriciləri olduğu kimi saxlanılmışdır. Nağıl Məlikməmmədin vəfalı atı ilə birlikdə acgöz və vahiməli divə qalib gəlməsindən bəhs edir.






http://clb.az/n-gncvi-ah-v-xidmti_d1407.html

**Nizami, G. Şah və xidmətçi / red. M. Namaz; rəs. N. Məmmədov. - Bakı: Gənclik, 1981. - 16 s.-"Bərpa-nəşr"**

**Nizami, G. Şah və xidmətçi / burax. məs. A. Cəfərov, Ş. Qəmbərova; red. Z. Dadaşova, S. Səmədova; dizayn. V. Ağamirzəyeva, E. Səfərəliyeva; Azərb. Resp. Mədəniyyət və**

**Turizm Nazirliyi., F. Köçərli adına Respublika Uşaq Kitabxanası - Bakı: “Renessans-A”, 2017.- 16 s.**

Nizami Gəncəvinin yazdığı bu nağıl kiçik yaşlı uşaqlar üçün nəzərdə tutulmuşdur. Təkrar çap zamanı ilk nəşrin kitab göstəriciləri olduğu kimi saxlanılmışdır. Kitab 1981-ci ildə Gənclik nəşriyyatında çap edilmişdir. 2017-ci ildə isə uşaqlar tərəfindən sevilən nağıl bərpanəşr tərəfindən Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi və F.Köçərli adına Respublika Uşaq Kitabxanasının birgə layihəsi ilə yenidən oxucuların ixtiyarına verilmişdir.




**Sonrakı peşmançılıq fayda verməz: Azərbaycan xalq nağılı / red. M. Namaz; rəs. U. Zeynalova.- Bakı: Gənclik, 1981. - 13 s.**

Kiçik yaşlı uşaqlar üçün nəzərdə tutulmuş bu kitab 1981-ci ildə Gənclik nəşriyyatı tərəfindən çap edilmişdir. Bu il xalq nağılının 1981-ci il çapından 40 il ötür. Kitabxananın qızıl fondunda qorunan çapın PDF variantı ilə aşağıdakı linkdə tanış ola bilərsiniz.
https://drive.google.com/file/d/14zEUbj71rnVvEMnEIR0Onyb0gJnEmrfi/view?usp=sharing




**Şirvanlı, Ə. İlbizin nəğməsi / Əlihəsən Şirvanlı; ön söz X. Rza; red. H. Sadıqova; rəs. Z. Həsənova. - Bakı: İşıq, 1981. - 26 s.**

Əlihəsən Şirvanlının "İlbizin nəğməsi" kitabı uşaqlar üçün yazılmışdır. Balacalara məhəbbətlə yazılmış bu şeirlərdə müəllif uşaqlara təbiət, quşlar və heyvanlar haqqında maraqlı məlumat verir. Kitabın 1981-ci ildə "İşıq" nəşriyyatı tərəfindən çap edilməsindən bu il qırx il keçir. 26 səhifədən ibarət şəkilli kitab F. Köçərli adına Respublika Uşaq Kitabxanasının qızıl fondunda qorunur. Kitabdan istifadə etmək istəyən oxucular virtual xidmət göstərən kitabxananın saytında yerləşdirilmiş aşağıdakı linkə keçid ala bilərlər.
https://drive.google.com/file/d/18TkgaX1kXeNPgmxwmV-KUakQhxojvZHR/view

**Cahangirov, T. Səlbinaz nənəm / Tariyel Cahangirov; red. H. Sadıqova; rəy. A. Laçınlı; rəs. R. Səmədov.- Bakı: "Kommunist" qəzeti, 1981. - 46 s.**

Məktəb yaşlı uşaqlar üçün şeirlər verilmiş "Səlbinaz nənəm" kitabı Tariyel Cahangirovun ikinci kitabıdır. Kitabda Vətənə, torpağa, əməyə məhəbbət hissləri tərənnüm olunur. Yalançılıq, tamahkarlıq, lovğalıq və başqa mənfi hallar isə tənqid edilir. Məktəb yaşlı uşaqlar üçün nəzərdə tutulmuş kitabın 1981-ci ildə "İşıq" nəşriyyatında çapdan çıxmasından bu il qırx il ötür. Kitabın bir nüsxəsi F.Köçərli adına Respublika Uşaq kitabxanasının qızıl fondunda qorunaraq gələcək nəslə ötürülür.
https://drive.google.com/file/d/15p48L--3txhjo9vCBfjxrtjAYGcJzcYT/view?usp=sharing




**Lermontov, M. Aşıq Qərib: Nağıl / Mixail Lermontov; red. M. Namaz; tərc. ed. Ə. Yusifoğlu; rəs. V. Martınov. - Bakı: Gənclik, 1981. - 23 s.**

1981-ci ildə "Gənclik" nəşriyyatında çapdan çıxmış dastan əsasən oğuz-türk mənşəlidir. 1837-ci ildə Mixail Lermontov nağılın Azərbaycan versiyasını ilk dəfə yazdıqdan və yazı 1846-cı ildə dərc olunduqdan sonra, əsər rusdilli mühitdə geniş şöhrət qazanmışdır.

https://drive.google.com/file/d/1w1Ze9IMRdFiABJ0wC6J5mXz-p6OWt2aF/view
http://clb.az/m-y-lermontov-aq-qrib_d635.html

**Ulduz: Kiçik yaşlı uşaqlar üçün şeirlər və hekayələr; red. M. Ələkbərli ; rəs. S. Şatikov. - Bakı: Gənclik, 1981. - 144 s.**




1978-ci ildə Gənclik nəşriyyatında çap edilən Ulduz almanaxında gənc yazıçı və şairlərin şeir və hekayələri verilmişdir. Bu almanaxda gənc şair və yazıçılar həyatınızı, təhsilinizi və əməyinizi, Vətənə, torpağa, təbiətə məhəbbətinizi rəngarəng, bədii detallarla əks etdirmişlər.

https://drive.google.com/file/d/1UmFkOH_KfG7lmBcNm-2S1IxqvftidRbE/view




**Ağayev, İ. Dostunu yaxşı tanı: Kiçik yaşlı uşaqlar üçün hekayə / İslam Ağayev; red. M. Namaz; rəs. R. Yanbulatov.- Bakı: Gənclik, 1981. - 16 s. 17 sm. - kiril əlifbası ilə.**

"Dostunu yaxşı tanı" İ.Ağayevin balalarımız üçün nəşr etdirdiyi ikinci kitabçasıdır. Buradakı hekayələrdə müəllif uşaqları doğruçu dostluqda etibarlı olmağa çağırır.

https://drive.google.com/file/d/1whm6nBqvYPlLtwQlOQAnj10Y5ZW3cXIE/view




**Rza, X. Marallar da duz yeyərmiş: şeirlər və poemalar / Xəlil Rza; red. M. Namaz; rəs. L. Məmmədova.- Bakı: Gənclik, 1981. - 156 s.**

Xəlil Rzanın bu kitabını oxuduqca balalar gül bağı Lənkərana, çayçı Astaraya, ipəkli Ordubada, çörəkli, duzlu Naxçıvana yurdumuzun daş salnaməsi Qobustana, sazlı-sözlü Göyçə mahalına qiyabi səyahətə çıxacaqlar. Doğma barlı-bəhrəli Vətənimizin ürəkaçan təbiəti, əmək adamları, qayğısız uşaqlıq dünyasının tərənnümü buradakı əsərlərin əsas mövzusudur.

https://drive.google.com/file/d/1vyv7uLvv9_uoMdMq8jWwXh50tedPuf7F/view




**Oleşa, Y. Üç gonbul: Povest və hekayələr / Yuri Oleşa; tərc. ed. R. M. Şıxəmirova; red. R. Salamova.- Bakı: Gənclik, 1981. - 255 s.**

Yazıçının bu kitabına Üç gonbul əsəri və bir neçə hekayəsi daxil edilmişdir. Kitabxananın qızıl fondunda yerləşən kitabla onlayn rejimdə aşağıdakı linkə keçid almaqla tanış ola bilərsiniz.

https://drive.google.com/file/d/1bFWpXQagSL-hyZ6VHn4IkjfOQkQm5fu5/view




**Həsənli, Y. Günəş doğanda: Kiçik yaşlı uşaqlar üçün şeirlər və poemalar / Yusif Həsənli; red. M. Namaz; rəs. B. Martınov.- Bakı: Gənclik, 1981.- 37s**

Balalarımız üçün maraqlı şeirlər yazan Yusif Həsənlinin “Günəş doğanda” adlı bu kitabı doğma torpağı, Vətəni, vəfalı dostları, yaşamaq eşqilə yaşayan insanları qorumağa səsləyir.

https://drive.google.com/file/d/19CY97unfaHLq8CfnxNkM5eRxYztLWepV/view?usp=sharing

**Kəmərli, A. Yadigar şəkil: Kiçik yaşlı uşaqlar üçün şeirlər və poemalar / Aslan Kəmərli; red. M. Namaz; rəs. S. Pirayeşi; rəy. A. Hüseynov.- Bakı: Gənclik, 1981. - 100 s.**







"Yadigar şəkil" kitabı "Kəndimizin baharı", "Obamıza yönüm düşüb" şeirlər kitabının müəllifi Aslan Kəmərlinin daha bir kitabıdır. Yurdumuzun gözəllikləri, qayğısız uşaqlıq, əməkçi insanlara məhəbbət kitabdakı şeirlərin əsas mövzusudur. Kitab 1981-ci ildə Gənclik nəşriyyatı tərəfindən çap edilmişdir. 2017-ci ildə isə təkrar nəşr edilib oxucuların ixtiyarına verilmişdir.

https://drive.google.com/file/d/1rbZKqsuS2aDFjSYm1wgnCM6fDRJjyjPg/view




**Qolyavkin, V. Bir, iki, üç... / Viktor Qolyavkin; red. M. Zeynalova; tərc. ed. T. Cəmilova; rəs. S. Şatikov.- Bakı: Gənclik, 1981. - 104 s.**

Uşaqlar üçün daha maraqlı bir kitab fikirləşib ərsəyə gətirmək istəyən müəllif kitabda həqiqəti başqasının dilindən deyil, uşağın dilindən vermişdir. Bununla o gös-

tərmək istəmişdir ki, əgər balaca oğlan özü öz həyatını danışa bilirsə, deməli onun xarakteri var və o cəsarətlidir. Kitabdakı "Balaca oğlan" povestində Petya öz həyatını danışır və dostu Vovkanın həyatını xarakterizə etməyə çalışır.

# Yubilyar kitablar - 2021

**(metodik vəsait)**

**Komputer yığımı**
**və dizayn:** **Nərgiz Məcidova**

**Ünvan:AZ-1022 Bakı şəh.,S.Vurğun küç.88;**
**E-mail:** info@clb.az.

**İnternet ünvanı: [www.clb.az](http://www.clb.az)**